# Kəlbəcər, sən azadsan!

*"Bahar fəsli - yaz ayları gələndə süsənli-sünbüllü, lalalı dağlar" 28 il idi ki, kəlbəcərlilərin gözlərində dumana-çənə bürünürdü. Çünki bu illər ərzində Kəlbəcərə yaz gəlmirdi. Sazın-sözün beşiyi olmuş bu doğma torpaqda özgə dildə danışırdılar. Çal-çağırlı günlərini də itirmişdi bu ulu yurd, doğma kəlbəcərliləri kimi...*
*28 il öncə baharda qan-yaş axıtdı bacı-qardaşlarımız. O baharda çəməndəki gül-çiçəklərimiz şəhid qanına bələndi, inlədi...*

Kəlbəcərin işğalı Dədə Şəmşirin yurdu Ağdabanın Ağdərədəki erməni daşnak quldur dəstələrinin qəfil hücumlarından başlamışdı. Ağdaban iki dəfə işğala məruz qalmışdı. Budur həmin qanlı tarix: 8 aprel 1992-ci il.

Ağdabanın tarixinə həmin gün qara hərflərlə yazılıb. O yurdun dəhşətlərindən danışmaq çox çətindir. Necə deyəsən ki, tarix boyu sazlı-sözlü olan Ağdaban həmin gün odlara qalandı? Necə deyək ki, Dədə Şəmşirin, atası şair Ağdabanlı Qurbanın işıq üzü görməyən əlyazmaları yandırılıb, külü göylərə sovrulub?..

Ağdabana 1992-ci il aprelin 8-də səhər tezdən çatmışdıq. Yağılar kəndi tar-mar edib dağıtdıqdan sonra baxmaq olmurdu bu yerlərə. Gecədən od vurulmuş evlərdən hələ də burum-burum qara tüstü qalxırdı. Ağdərənin Çapar kəndi istiqamətindən atılan toplar bizdən o yana düşüb "salamat" qalmış bir neçə evi də dağıtdı. Kəndin köməyinə gəlmiş müdafiəçilər düşməni susdurmağa çalışsalar da, heç bir əhəmiyyəti yox idi.

## Qan içində boğulan, "tüstüsü başından çıxan" kənd

Ağdabanla Çayqovuşanın arasında bir təpə var. Bura qədimlərdən uşaq qəbiristanlığı olub. Kəlbəcərin əksər kəndlərində körpələrin və uşaqların ayrıca qəbiristanlığı var idi. Dədə Şəmşirin də son mənzili burada, uşaq qəbiristanlığında idi. Təsadüfən möcüzədənmi, ya nədənsə salamat qalmış məzar daşları sanki yandırılmış hər iki kəndə ağı deyirdi. Yığışmışdıq Dədə Şəmşirin məzarı başına. Hamı günahkar kimi başını aşağı dikib Dədəyə başsağlığı verirdi.

Yandırılmış kənddən cəsədləri çıxarmaq üçün qrup ayrılmışdı. Güllə yağışının altında kəndə girmək qorxulu olsa da, heç kim ehtiyat etmirdi. Saya bilmirdik yandırılmış, işgəncələrlə divan tutulmuş kənd camaatının meyitlərini.

Birdən kimsə qışqırır: "Vay qardaş, can, ay qardaş. Səni də kəndimiz kimi, qoruya bilmədim... Dedilər ki, şair Əlqəmənin oğludur, Dədə Şəmşirin nəslindəndir". Bu fəryad bəlkə də Murovun qarlı zirvəsinə qədər gedib çatmışdı: dağlarda da bu haray var idi...

Ağdabanın o dəhşətli günlərini gözlərimizə köçürüb üzü geri qayıdırdıq. Kəlbəcərin milisləri, özünümüdafiə dəstələri isə hələ də soraqları olmayan ağdabanlıları axtarırdılar. Ağdabanda qanlı ayaq izləri qalır və bir də ara-sıra güllə səsləri eşidilirdi.

O gün Kəlbəcər gözləri baxa-baxa şəhid olmuş ağdabanlılara qara geyinib yas saxlayırdı. Kəlbəcər özünün ilk şəhid balalarını sinəsinə basıb oxşamaq istəyirdi. Kəlbəcərin Yolaşan adlanan ərazisində Şəhidlər xiyabanı salınırdı. Bu xiyabana ilk şəhid karvanı yol başlamışdı. Bu qara karvan ağdabanlılarınkı idi...

## "Dəmir qanadlı quş"un qanlı caynaqları və 8 şəhid fidan

1989-cu il iyulun 11-də tütün sahəsində çalışan ağdabanlı qadınlar onları girov götürmək istəyən 7 erməni silahlı quldurunu tutmuşdular. Rayon prokurorluğu istintaqa başlamışdı. Respublika Prokurorluğu isə işin Dağlıq Qarabağ Muxtar Vilayəti hərbi komendantının sərəncamına göndərilməsinə əmr vermişdi. İyulun 14-də həmin erməni quldurlarını Xankəndiyə, guya istintaqa aparmaq üçün rus hərbçilərinin müşayiəti ilə Kəlbəcərə 2 hərbi vertolyot gəldi. Nədənsə vertolyotlar nəzərdə tutulmuş meydançaya deyil, şəhər stadionuna endi. Erməni quldurlarını götürüb qalxarkən yenə də guya vertolyotlardan birinin pərləri elektrik dirəyinə toxundu. Vertolyot müvazinətini itirərək stadionun yanındakı divarın dibinə düşdü. Bu zaman vertolyotun pərləri burada futbol oynayan, həmin vahiməli "dəmir qanadlı quş"a baxmağa toplaşmış uşaqları biçib tökdü. O gün Kəlbəcər 8 azyaşlı məktəblinin qanında boğuldu. Kim idi onlar: ermənilərə güllə atanmı? Başqa xalqın torpağına göz dikənmi? Bəs nə idi onların günahsız axan qanına bais?..

Həmin hadisəyədək (aprelin 7-dən 8-nə keçən gecə) ermənilər gecə ikən hücum edərək Dədə Şəmşirin yurdunu - Ağdabanı ikinci Xocalıya çevirdilər. Hücumdan xəbərsiz kənd əhalisi başıaçıq-ayaqyalın qarlı meşələrə, dağlara çəkildi. Kəndi müdafiə edən kiçik dəstə ermənilər tərəfindən məhv edildiyindən əhali müdafiəsiz qalmışdı. Bu qanlı faciə zamanı 31 ağdabanlı - qoca, qadın, uşaq həlak oldu, iki nəfər evdə diri-diri yandırıldı, 7-si isə girov kimi aparıldı. Kənd bütünlüklə odlara qalandı. Səhər tezdən köməyə gələn yerli özünümüdafiə batalyonunun 6 döyüşçüsü də pusquya düşərək həlak oldu. Hərbçilər və mülki adamlar yolda gülləbarana tutuldular.

Ağdaban faciəsi ermənilərin Kəlbəcərə qarşı başladığı böyük müharibənin işarəti idi. Ağdabanın ermənilərin əlində qalması görünməz fəlakətlərə gətirib çıxarar, digər kəndlərin işğalını asanlaşdırar, Murov yolunun quldurlar tərəfindən tutulmasına və beləliklə də, 52 min nəfərlik əhalinin tamamilə məhvinə gətirib çıxarardı.

Xocalı soyqırımı kimi, Ağdabanın birinci faciəsi də o zaman respublikada başa düşülmədi. Neçə illər keçsə də, hələ o faciə beynəlxalq miqyasda müzakirəyə çıxarılmayıb. Sonrakı hadisələr bir daha təsdiqlədi ki, Kəlbəcərin işğalı əslində hələ 1992-ci il aprelin 7-dən 8-nə keçən gecə Ağdabanın ermənilər tərəfindən darmadağın olunmasından başlamışdı.

Qarabağın dağlıq hissəsinə vaxtilə qonaq qismində gəlmiş erməni daşnakları 1988-ci il fevral ayının 13-də Əli ilə Bəxtiyarı (iki günahsız yeniyetməni) qətlə yetirdikdən sonra xalqımızın tarixində yeni şəhidlik dövrü başladı. İlk şəhidlərimiz torpaq uğrunda əbədiyyətə qovuşdu. Sonra qədim İrəvanda, Zəngibasar və Göyçədə, Hamamlı və Gümrüdə... şəhid verdik. Düşmən mühasirə halqasını daraltdıqca şəhidlərimizin sayı da artdı. Nəinki Qərbi Azərbaycanda, Dağlıq Qarabağda da türksoylular doğma torpaqlarında didərginə, qaçqın-köçkünə və girova çevrildilər.

Həmin günlərdən sonra Kəlbəcərin ayrı-ayrı kəndlərinin dinc sakinləri gülləbaran edildi, Dikyurd yaylağından yeniyetmə yaşlarında olan Hidayət Cəfərov 500 başdan artıq mal-qara ilə birlikdə oğurlanıb Basarkeçərə (Vardenisə) aparıldı.

Kəlbəcərin müsibətli günlərində qan çanağında boğulan kəndlərdən biri, əslində isə birincisi Ağdabanla Çayqovuşan idi.

## Otaqqaya, qanlı karvan və bir də...

Ağdaban növbəti dəfə erməni quldur dəstələri tərəfindən darmadağın edildi. Beləliklə, 8 aprel 1992-ci il və 26 mart 1993-cü il Ağdabanın işğal tarixləri kimi yaddaşlara yazıldı. Ermənilər Ağdabanı təkcə strateji məkan olduğu üçün deyil, əslində Kəlbəcər ədəbi mühitinin beşiyi kimi də çoxdan hədəfə almışdılar. Çünki bu kəndin yetirdiyi Ağdabanlı Qurban böyük sərkərdə Şah İsmayıl Xətainin silahdaşı olan Miskin Abdal ocağının nəsil davamçısı idi. Bu ocaq mənəviyyatımızın beşiyi kimi erməniləri olduqca ciddi narahat edirdi. Məhz ona görə də hələ 1990-cı il iyul ayının 11-də Ağdərənin Otaqqaya ərazisində Tərtər-Kəlbəcər marşrutu ilə gedən (150-yə yaxın maşından ibarət) karvanın qarşısını kəsərək Dədə Şəmşirin qızı Çimnaz xanımı, Zərdab rayon milis rəisinin müavini, mayor Şahlar Şükürovu (Azərbaycanın Milli Qəhrəmanı), Aslan Xıdırovu, ittifaq miqyaslı "İstisu" sanatoriyasında müalicəyə gedən dinc sakinləri (əksəriyyəti xəstə və qocalardan ibarət idi) terror nəticəsində qətlə yetirmişdilər.

Bu, ermənilərin əsas və çirkin niyyətlərinin həyata keçirilməsi planının ilkin şərtlərindən biri idi. Min təəssüf ki, o zaman Ağdaban faciələrinə rəsmi olaraq siyasi və hüquqi qiymət verilmədi. Neçə-neçə belə faciələrimizin üstündən sükutla keçilməsi isə nəticədə Ermənistanın torpaq iştahasını bir az da artırırdı...

## Ağdabanın ikinci faciəsi: 26 mart 1993-cü il

...Həm Ağdərə, həm də Ermənistanın Basarkeçər rayonu istiqamətindən hücuma məruz qalan, müdafiə olunmayan, şayiələr və təxribatlar nəticəsində vahiməyə düşən Kəlbəcər əhalisi qarlı-çovğunlu günlərdə öz dədə-baba yurdlarından bütün əmlakını ataraq, dəniz səviyyəsindən 3400 metr yüksəklikdə olan Murovdağ aşırımından qaçmağa məcbur edilmişdi. Siyasi oyunların, daxili çəkişmələrin, satqın hərbçilərin xəyanətindən 52 min nəfərlik əhali qısa vaxt ərzində doğma yurdundan qovuldu. Azərbaycanın ən gözəl, öz təbii ehtiyatlarına görə zəngin bölgəsi olan Kəlbəcər təkləndi və düşmənin əlinə keçdi.

Ağdabanın ikinci dəfə işğalı Kəlbəcərin tamamilə Ermənistan tərəfindən zəbt olunması demək idi. Bundan sonra Kəlbəcər hər tərəfdən mühasirəyə alınaraq, 1993-cü il aprelin 2-də tamamilə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi.

Kəlbəcərin əhalisi respublikanın 62-dən çox rayonunda sığınacaq tapdı.

## Bu da rəsmi rəqəmlər

Dağlıq Qarabağ ərazisindən kənarda yerləşən Kəlbəcərin 511 nəfər dinc sakini öldürüldü, 321-i əsir götürüldü, 58 mini ata-baba yurdundan didərgin düşdü. İşğal nəticəsində Kəlbəcərdə 130 yaşayış məntəqəsi yerlə-yeksan edildi, 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, 43 klub, 42 mədəniyyət evi, 9 xəstəxana, 13000 fərdi ev dağıdıldı, 37852 hektar meşə sahəsi, təbii ehtiyatlar, o cümlədən zəngin qızıl yataqları talan edildi.

Rayonun işğalından sonra maddi-mədəniyyət abidələri məhv edildi. Belə ki, rayonun Vəng kəndi ərazisində Alban məbədi, Çərəkdardakı Alban kilsəsi, Qanlıkənddəki Lök qalası, Qaraçanlıdakı Uluxan qalası, Tərtər çayının Bulanıq çayı ilə qovşağında yerləşən Alban kilsəsi, Qalaboynundakı qala, Comərddəki Comərd qalası, Qamışlıdakı Keşikçi qalası, Kəlbəcər şəhərində, Başlıbel və Otaqlı kəndlərində məscidlər, Tərtər çayı üzərindəki Tağlıdaş körpüsü, Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi, Aşıq Şəmşir adına Mədəniyyət evi, Söyüdlüdəki Seyid Əsədulla ziyarətgahı və digər onlarca mədəni-tarixi və dini abidələr dağıdılaraq yerlə-yeksan olundu.

...Hər zülmət gecənin bir işıqlı sabahı olur. Bu fikir 27 il idi ki, kəlbəcərlilərin də dilinin əzbərinə çevrilmişdi. Nəhayət, o gün gəldi, həm də cəmi 44 günlük Vətən müharibəsinin Zəfər Qələbəsi ilə! Ötən ilin sentyabrında başlayan Vətən müharibəsi Qarabağın, o cümlədən Kəlbəcərin də işğalına son qoydu. Düşmən layiqli cavabını alaraq hətta Kəlbəcəri, Laçını və Ağdamı döyüşsüz təslim etdi. Bu Zəfər yurdundan, doğma torpağından didərgin salınmış məcburi köçkünlərin geri qayıtması üçün yollar açdı.

Arzulanan o işıqlı, nurlu gün gəldiyi üçün illərdir işğal altında inləyən yurdlarımızın üstünə gün doğdu. Bu bahar dağlara səs-səda saldı. Azərbaycan əsgəri üçrəngli bayrağımızı zirvələrdə dalğalandırdı. Bu sevincdən daha çox pay əlbəttə, o yerlərin həsrətini, intizarını çəkən xalqımıza, dövlət başçısı, Ali Baş Komandana düşdü. Səmamız da bu gün məqsədimiz, məramımız və amalımız kimi aydındır, işıqlıdır, nurludur. Bir zamanlar yazda əriş-arğac olan Kəlbəcər yolları yenə də haçalanır neçə kəndə, neçə bərə-bəndə... Bu Qələbəyə biz Lələtəpə zəfərindən, Böyük Qayıdışa isə Cocuq Mərcanlıdan başlamışdıq...

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

Azərbaycan.- 2021.- 2 aprel.- S.7.